# Qarabağın mədəniyyət məbədi – Şuşa

**Fərqanə Hüseynova**
Kulturologiya üzrə fəlsəfə doktoru
AMEA Memarlıq və İncəsənət İnstitutu. Azərbaycan.
E-mail: farqana.huseynova68@gmail.com

**Annotasiya.** Qarabağın baş tacı adlandırılan Şuşa həm də Azərbaycanın qədim mədəniyyət mərkəzi, mədəniyyət beşiyi sayılır. Şuşa füsunkar təbiəti, tarixi memarlıq abidələri, musiqisi ilə hər zaman insanları heyran etmişdir. Azərbaycanın mədəniyyət tarixində mühüm rol oynayan şəxsiyyətlər bu şəhərdə anadan olmuşdur. Məqalədə Şuşa şəhərində dağıntılara məruz qalmış tarixi-memarlıq və mədəni abidələrimizdən bəhs edilir. Şərqin musiqi konservatoriyası adlandırılan Şuşada muğam məktəbindən və bu məktəbin yetişdirdiyi sənətkarlardan, erməni vandalizminin qurbanı olan Şuşa muzeylərindən, o cümlədən Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin Şuşa filialının taleyindən söhbət açılır. Məqalədə, həmçinin tarixin ayrı-ayrı dövrlərində Şuşaya səyahət etmiş səyyah və alimlərin, məşhur şəxslərin qədim Azərbaycan şəhəri olan Şuşanın füsunkar təbiəti, mədəniyyəti, qonaqpərvərliyi haqqında söylədikləri fikirlərindən sitatlar gətirilir.
**Açar sözlər:** Azərbaycan, Şuşa, mədəniyyət beşiyi, muğam məktəbi, Xalça muzeyi

**Məqalə tarixçəsi:** göndərilib – 03.09.2022; qəbul edilib – 16.09.2022

# Temple of culture of Karabakh – Shusha

**Fargana Huseynova**
Doctor of Philosophy in Culturology
Institute of Architecture and Art of ANAS. Azerbaijan.
E-mail: farqana.huseynova68@gmail.com

**Abstract.** Shusha, which is called the crown of Karabakh, is also the ancient cultural center of Azerbaijan, the cradle of culture. Shusha has always amazed people with its lovely nature, historical and architectural monuments and music. Persons who played an important role in the cultural history of Azerbaijan were born in this city. The article deals with our historical, architectural and cultural monuments that were destroyed in Shusha. We are talking about the mugham school in Shusha, which is called the Oriental music conservatory, and the masters brought up by this school, the Shusha museums that were victims of Armenian vandalism, as well as the fate of the Shusha branch of the State Museum of Azerbaijani Carpets and Folk Applied Arts. The article also quotes the opinions of travelers, scientists and celebrities who traveled to Shusha in different periods of history about the lovely nature, culture and hospitality of the ancient Azerbaijani city of Shusha.
**Keywords:** Azerbaijan, Shusha, cradle of culture, mugham school, Carpet Museum

**Article history:** received − 03.09.2022; accepted − 16.09.2022

## Giriş / *Introduction*

Qarabağın döyünən ürəyi olan Şuşa zəngin və şanlı tarixi keçmişə malikdir. Şuşa ətrafındakı qədim yaşayış yerləri, o cümlədən məşhur Cıdır Düzündəki Şuşa mağarası bu ərazinin Azərbaycanda ən qədim insan düşərgələrindən biri olduğunu sübut edir. Qarabağın baş tacı adlandırılan Şuşa həm də Azərbaycanın qədim mədəniyyət mərkəzi, mədəniyyət beşiyimiz sayılır. Azərbaycanın mədəniyyət tarixində mühüm rol oynayan şəxsiyyətlər bu şəhərdə anadan olmuşlar. Şuşa həm də füsunkar təbiəti, tarixi-memarlıq abidələri, musiqisi ilə hər zaman insanları heyran etmişdir. Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi, "Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, Vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir".

İngilis səyyah və alimləri C.Morye və R.Burter Şuşanın qədimliyi ilə bağlı dəyərli mülahizələr söyləmişlər. C.Moryenin fikrincə, Şuşa hələ eradan əvvəl insan məskəni olmuşdur. R.Burter isə yazır ki, "Şuşada Qafqazın başqa yerlərində olmayan Avropa şəhərlərindəki kimi daş binalar, daş döşəməli geniş küçələr, qədim Roma hamamlarını xatırladan gözəl hamam qalıqları vardır". Bütün bunlar Şuşanın hələ çox qədimdən mövcud olması haqqında fikir söyləməyə əsas verir. Tarixi mənbələrdə Şuşanın hətta XIII əsrdə də Azərbaycanın məşhur şəhərlərindən biri olması haqqında faktlar vardır [4].

## Əsas hissə / *Main Part*

1992-ci il mayın 8-də Azərbaycanın qədim musiqi və mədəniyyət mərkəzi olan Şuşa şəhərinin Ermənistan ordusu tərəfindən ələ keçirilməsi 28 il xalqımızın qəlbində bir nisgil, ağrı olaraq qaldı. Uzun müddət ermənilər onlarla heç bir tarixi və mental əlaqəsi olmayan Şuşa şəhərini erməni şəhəri kimi qələmə verir, tarixi-memarlıq və mədəni abidələrimizi dağıdır, həyasızcasına tarixi saxtalaşdırırdılar. Ermənistanın Baş nazirinin Şuşa şəhərinin ələ keçirilməsinin 27-ci ildönümündə yallı gedənlərə qoşulması, Şuşada separatçı "DQR" prezidentinin andiçmə mərasiminin keçirilməsi Azərbaycan dövlətinin və xalqının səbr kasasını doldurdu. 44 günlük müharibə Azərbaycanın haqlı qələbəsi ilə bitdi. Vətən müharibəsi başladığı gündən rəşadətli ordumuzun ardıcıl qələbələrindən sonra hər kəs həyəcanla Şuşa xəbərini gözləyirdi. 2020-ci il noyabrın 8-i tariximizə ən şanlı bir gün kimi yazıldı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın baş tacı olan Şuşa şəhərini işğalçılardan azad etdi. Ordumuzun bu şanlı qələbəsi "Zəfər günü" kimi tariximizə yazıldı.

30 ilə yaxın Ermənistan silahlı qüvəllərinin işğalı altında olan Azərbaycan əraziləri, o cümlədən Şuşa böyük dağıntılara məruz qalmış, Azərbaycanın tarixi, mədəni və dini abidələrinə çoxlu sayda ziyan dəymişdir. Azərbaycan multikultural dövlət kimi hər zaman bütün dini ənənələrə hörmətlə yanaşmışdır. Bakı dəfələrlə dünya dini liderlərinin zirvə görüşlərinin paytaxtı olub. İşğal dövründə tariximizin, mədəniyyətimizin, bir sözlə, mədəni irsimizin erməni qəsbkarları tərəfindən dağıdılması, məhv edilməsi bir daha erməni vandalizmini, ermənilərin iç üzünü dünyaya göstərdi.

İşğala qədər Şuşada bütövlükdə 270-ə yaxın dini, tarixi və mədəni abidə olub. Tarixi abidələr, mədəniyyət nümunələri erməni işğalçıları tərəfindən talan edilmiş, dağıdılmış və məhv edilmişdir. Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində Şuşada 25 məktəb, 31 kitabxana, 17 klub, 8 mədəniyyət evi, 4 texnikum, 2 institut filialı, 7 uşaq bağçası, 4 kinoteatr, 5 mədəniyyət və istirahət parkı, 2 sanatoriya, 2 mehmanxana, Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı, Şuşa Dövlət Dram Teatrı, Şuşa Televiziyası, Şərq Musiqi Alətləri Fabriki, Dövlət Rəsm Qalereyası, Uşaq Sağlamlıq Məktəbi talan edilmiş, yandırılmış və dağıdılmışdır.

Qarabağın baş tacı olan Şuşa nəinki füsunkar təbiəti, əsrarəngiz bulaqları, əzəmətli dağları, Cıdır Düzü, "Xarıbülbül"ü ilə insanları heyran etmiş, eləcə də ədəbiyyatı, musiqisi, muğam sə-

nəti ilə bütün dünyaya səs salmış, bir sənət məbədi olmuşdur. Şuşanı haqlı olaraq Şərqin musiqi konservatoriyası adlandırıblar. Azərbaycan peşəkar musiqi sənətinin banisi və Şərqin ilk operasının müəllifi, dahi bəstəkar Üzeyir Hacıbəyli, musiqi mədəniyyətimizdə silinməz izlər buraxmış Xan Şuşinksi, Seyid Şuşinski, Bülbül, Niyazi Şuşanın yetişdirdiyi görkəmli musiqiçilər olmuşlar. Şuşa məhz muğam məclisləri ilə o qədər şöhrətlənmişdir ki, nəticədə musiqi mədəniyyəti baxımından Qafqazda nadir məkana çevrilmişdir. Şuşada uşaqlar "Segah" üstə ağlayır, "Şahnaz" üstə gülürlər" və xalqın dilinə daxil olan digər bu kimi başqa məsəllər muğamın Azərbaycan xalqının həyatındakı əhəmiyyətli rolundan xəbər verir.

XX əsrdə Qarabağ musiqi məktəbi dünyaya bir çox tanınmış musiqiçi bəxş etmişdir. Qarabağda keçirilən musiqi festivalları və müsabiqələri yeni istedadların üzə çıxması və inkişafına təkan vermiş və muğam sənətinin dünyada tanıdılmasına şərait yaratmışdır. Buna misal olaraq,1987-ci ildə Şuşada keçirilən "Xarı bülbül" ümumittifaq musiqi festivalını göstərmək olar. Heydər Əliyev Fondunun "Qarabağ xanəndələri" layihəsində xalqımızın musiqi mədəniyyətinin inkişafında xüsusi rolu olan Qarabağ muğam məktəbinin 24 nümayəndəsinin səs yazıları dinləyicilərə təqdim edilmişdir. Bu səs yazıları müxtəlif illərə məxsusdur [3].

Məşhur fransız yazıçı Aleksandr Düma 1858-ci ildə Qafqazda olmuş, Qafqaza səfəri zamanı Azərbaycan ərazilərinə səyahət etmişdir. Mədəniyyət beşiyi olan Şuşa şəhərinin abhavası məşhur yazıçı Aleksandr Dümanın "Qafqaz səfəri" əsərində öz əksini tapmışdır. Kitabda bu yerlərin gözəlliyindən, Azərbaycan xalqının qonaqpərvərliyindən, Qarabağ xanlığından, o dövrün tanınmış şairəsi Natəvandan bəhs edilir.

Azərbaycan Dövlət Tərcümə Mərkəzinin hazırladığı "Şuşa həqiqətləri" adlı sənədli videoçarxda Azərbaycanın mədəniyyət beşiyi olan Şuşadan, Şuşa Qalasının tarixindən bəhs edilir: "1865-ci ilin mayında Şuşaya səyahət edən məşhur rus rəssamı Vasili Vereşşaginin Şuşanın təsvirləri əks olunan silsilə rəsmləri şəhərin o dövrlərə aid mənzərələrini əbədi olaraq tarixə həkk edir. "Şuşa məscidi", "Şuşada məhərrəmlik", "Müsəlman məktəbi", "Şuşada varlı azərbaycanlının qonaq evi" və s. kimi adlar daşıyan bu tablolar indi də muzeylərdə saxlanır" [5].

Azərbaycan maddi-mədəni irsi və tarixi abidələri ilə tanınan ölkədir. Dünyada tətbiqi sənətin nadir nümunələrindən olan xalçaçılıq ölkəmizdə qədim tarixə malikdir. Azərbaycan maddi mədəniyyət abidələri və tarixi özündə yaşadan sərvətlərlə zəngindir. Azərbaycanın bir parçası olan Qarabağda belə sərvətlər sayagəlməz dərəcədə çoxdur. XX əsrin otuzuncu illərindən başlayaraq bu bölgədə bir-birinin ardınca mahiyyətinə görə müxtəlif təmayüllü muzeylər, xatirə kompleksləri, qoruqlar yaradılmışdı. Təkcə Şuşa şəhərində 8 muzey fəaliyyət göstərirdi: Dövlət Qarabağ Tarixi Muzeyi, Uzeyir Hacıbəylinin, Azərbaycanın görkəmli xanım yazarı Xan qızı Natəvanın, musiqi sənətimizin alovlu təbliğatşısı və tədqiqatçısı Bülbülün, Mir Möhsün Nəvvabın və başqalarının ev-muzeyləri [2, s.37].

Belə muzeylərdən biri də Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin Şuşa filialı idi. Filial fəaliyyətinə 19 may 1987-ci il tarixindən Şuşa şəhərində, XIX əsrin tarixi-memarlıq abidəsi olan, general Səməd bəy Mehmandarova məxsus malikanədə başlamışdır. Şuşa filialında Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin əsas fondundan seçilmiş, bəşər mədəniyyətinə incilər bəxş edən, Qarabağın milli sənət dəyərləni yaşadan xovlu-xovsuz xalçalar, xalça məmulatları, bədii tikmə, milli geyim nümunələri, zərgərlik və bədii metal məmulatları nümayiş olunurdu. Şuşa şəhərinin ermənilər tərəfindən işğalolunma təhlükəsi yarandıqda, 1992-ci ilin fevral ayında filial öz fəaliyyətini dayandırmağa məcbur oldu. Şuşa filialının 246 ədəd eksponatından 183-ü Bakı şəhərinə gətirilərək, Azərbaycan Xalça Muzeyinin əsas fonduna təhvil verildi. Şuşada fəaliyyət göstərən 8 muzeydən yalnız Azərbaycan Xalça Muzeyi əşyalarının yarıdan çoxunu, dahi bəstəkar Üzeyir Hacıbəylinin Ev Muzeyi isə əşyalarını qismən xilas edə bilmişdir. Hazırda Şuşa filialı öz fəaliyyətini Azərbaycan Milli Xalça Muzeyində davam etdirir.

Azərbaycan xalqının tarixi və mədəniyyəti ilə bağlı qiymətli əşyalar, rəsm və heykəltəraşlıq nümunələri, dünya şöhrətli Azərbaycan xal-

çaları, xalça məmulatları, Azərbaycanın görkəmli şəxsiyyətlərinin xatirə əşyaları və digər eksponatların toplandığı bu muzeylər düşmən tərəfindən qarət olunmuşdur. Ermənilərin törətdikləri vandalizm aktları "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasına, "Arxeoloji irsin nümayəndəsi", 1992-ci il Avropa Konvensiyasına, "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" YUNESKO-nun 1972-ci il Konvensiyasına ziddir. Azərbaycan nümayəndə heyətləri bu problemi mütəmadi olaraq beynəlxalq tədbirlərdə gündəmə gətirirlər [2, s.38].

UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasından da Azərbaycanın işğal edilmiş torpaqlarında xalqımıza məxsus tarixi və mədəni irsin məqsədyönlü şəkildə məhv edilməsinə dəfələrlə münasibət bildirilmişdir.

Komissiya tərəfindən bildirilir ki, ermənilər tərəfindən işğal edilmiş ərazilərimizdə aparılan qeyri-qanuni arxeoloji qazıntılar nəticəsində xalqımıza məxsus zəngin maddi-mədəni irs nümunələrinin Ermənistana daşınması və eləcə də "qara bazar"da satılması halları ilə bağlı faktlar da mövcuddur. Vurğulanmalıdır ki, Ermənistan tərəfindən maddi-mədəni irs nümunələrimizin qeyri-qanuni yollarla ölkədən çıxarılması UNESCO-nun "Mədəni dəyərlərin qanunsuz olaraq ölkəyə gətirilməsi, ölkədən çıxarılması və mülkiyyət hüququnun qanunsuz olaraq başqasına verilməsinin qadağan olunması və qarşısının alınmasına yönəlmiş tədbirlər haqqında 1970-ci il Konvensiyası"na ziddir. Bu, beynəlxalq hüquq normalarının, o cümlədən Ermənistanın tərəf çıxdığı sözügedən konvensiyada qeyd olunan öhdəliklərin kobud şəkildə pozulması deməkdir.

Bildirilir ki, ölkəmiz türk dünyasının mədəni irsinin qorunması məsələsini beynəlxalq təşkilatlarda, o cümlədən TÜRKSOY-a üzv olan ölkələrin, UNESCO üzrə milli komissiya və komitələrin iclaslarında qaldıraraq türk dünyasının abidələrinin qorunmasına birgə səylər göstərilməsinə daim çağırış etməkdədir [6].

Azərbaycan öz tarixi milli-mənəvi dəyərlərinə sadiq qalaraq hər zaman humanist mövqeyini ortaya qoyur. Ermənistandan başqa, qonşu ölkələrin heç biri ilə problemi yoxdur. Dinc qarşılıqlı yardımlaşma və dostluq şəraitində əlaqələrini sürdürməkdədir. Eynilə ölkə daxilindəki multikultural mühit bütün insanların rifah və firavanlığını təmin edir. 44 günlük Vətən savaşından sonra yenə də Azərbaycan dövləti Ermənistana qonşu kimi əlini uzadır, təkliflər edir. Baxmayaraq ki, əraziləri dağıdılan, işğala məruz qalan, didərgin salınan, öldürülən, yeraltı, yerüstü sərvətləri talan edilən Ermənistan deyil, Azərbaycandır. Bütün bu dəhşətli müharibə hadisələri məhz Azərbayan torpağında gedib. Dünya dövlətləri tərəfindən tanınan Ermənistan Respublikasının sərhədləri daxilində heç bir müharibə əməliyyatları aparılmayıb, dövlət sərhədləri pozulmayıb. Ancaq görünən odur ki, narazı qalan da onlardır. Bir səhv elədik, bir də etmərik deyib, heç olmazsa, bundan sonrasını düşünək, – deyə niyyətlərini sağlamlaşdırmaq əvəzinə, ağılsız bəyanatlar və ittihamlar hələ də eşidilməkdədir [1, s.59-60].

## Nəticə / *Conclusion*

İllər sonra Azərbaycanın Müzəffər Ordusu Qarabağı işğalçılardan azad etdi. 30 illik müharibə 44 gündə Azərbaycanın haqlı qələbəsi ilə bitdi. Bu gün işğaldan azad olunan bütün ərazilərimizdə yenidənqurma işlərinin aparılması, sosial-iqtisadi yeniliklər, yeni infrastrukturun yaradılması, öz doğma yurdlarına qayıdan vətəndaşlarımızın yaşayışı və işgüzar fəaliyyəti üçün şəraitin təşkil edilməsi ən ümdə prioritet kimi qəbul edilib. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Tezliklə bütün Qarabağda abadlıq, quruculuq, inkişaf başlayacaq". Bu baxımdan da Prezidentin işğaldan azad olunan torpaqlarımızın inkişafı ilə bağlı imzaladığı Fərman və Sərəncamları, o cümlədən "Qarabağ Dirçəliş Fondu" 30 il həsrətində olduğumuz torpaqlarımızda quruculuq işlərinin həyata keçirilməsində, Qarabağa layiqli həyatın qaytarılmasında mühüm rol oynayacaq və tarixi qələbəmizə, qüdrətli və güclü Azərbaycan naminə milli birlik ideyasına, suveren və təhlükəsiz yaşamaq məqsədinə mühüm töhfə olacaq.

**Ədəbiyyat / *References***

1. Abbasov N. Qarabağın qara bağı. Bakı, 2021.
2. Dünənimizi sabaha bağlayan "körpü"lər-muzeylər. Metodik vəsait. F.Köçərli adına Respublika Uşaq Kitabxanası. Bakı, 2017.
3. Qarabağ muğam məktəbi. mehriban-aliyeva.az
4. Şuşa – Azərbaycanın tarixi mədəniyyət mərkəzi, Qarabağın baş tacı. Bakı, "525-ci qəzet", 2020, 13 noyabr.
5. Şuşa həqiqətləri. Azərbaycan Dövlət Tərcümə Mərkəzi. aztc.gov.az
6. Tarixi və mədəni irsimizə qarşı bəşəri cinayət. Bakı, "Xalq qəzeti", 2020, 11 oktyabr.

## Храм культуры Карабаха – Шуша

**Фаргана Гусейнова**
Доктор философии по культурологии
Институт архитектуры и искусства НАНА. Азербайджан.
E-mail: farqana.huseynova68@gmail.com

**Резюме.** Шуша, называемая короной Карабаха, считается древним культурным центром, колыбелью культуры Азербайджана. Шуша всегда поражала людей своей чарующей природой, историческими архитектурными памятниками и музыкой. В этом городе родились личности, сыгравшие важную роль в истории культуры Азербайджана. В статье говорится о наших исторических, архитектурных и культурных памятниках, которые были уничтожены врагом в городе Шуша. Речь идет о школе мугама в Шуше, которая называется музыкальной консерваторией Востока, и о мастерах, которых она воспитала, о шушинских музеях, ставших жертвами армянского вандализма, в том числе и о Шушинском филиале Государственного Музея Азербайджанского Ковра и Народного Прикладного Искусства. В статье также приводятся цитаты путешественников и ученых, известных личностей, побывавших в Шуше в разные периоды истории, об очаровательной природе, культуре, гостеприимстве древнего азербайджанского города Шуша.
**Ключевые слова:** Азербайджан, Шуша, колыбель культуры, школа мугама, Музей ковра